# Nizami rayonunda KİV nümayəndələri ilə görüş





Dünən paytaxtın Nizami Rayonu İcra Hakimiyyətində Azərbaycan Milli Mətbuatının 140 illiyi münasibətilə tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə rayon icra hakimiyyəti başçısının birinci müavini Qərib Məmmədov açaraq bildirdi ki, 140 il ərzində milli mətbuatımız tarixi yol keçib. Azərbaycan mətbuatının yaranmasının 140 illiyi ilə bağlı dövlət başçısı tərəfindən sərəncam verilib. "Əkinçi"dən başlayan milli mətbuatımız xalqımızın maarifləndirilməsində böyük rol oynayıb. Azərbaycan mətbuatı həm Xalq Cümhuriyyəti, həm də sovet dövründə milli maraqlarımıza xidmət edib.

Ümummilli lider Heydər Əliyev mətbuata çox böyük diqqət və qayğı göstərib. Bu gün isə ölkə Prezidenti cənab İlham Əliyev də mətbuata diqqət və qayğını daim ön planda saxlayır. Dövlət başçısının imzaladığı sərəncamla 2009-cu ildə Azərbaycan Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılıb. Bu gün respublikamızda mətbuatın inkişafı üçün hər cür şəraitin yaradıldığını, mətbuatın maddi-texniki bazasının gücləndirilməsi, jurnalistlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görüldüyünü diqqətə çatdıran Qərib Məmmədov media ənənələrinin uğurla davam etdirildiyini bildirdi.

Rayon icra hakimiyyəti başçısının müavini G.İsrafilova da öz çıxışında bütün KİV nümayəndələrini təbrik etdi, bu şərəfli yolda uğurlar arzuladı. Qeyd etdi ki, Milli Mətbuatın 140 illiyi ilə bağlı ölkəmizdə müxtəlif tədbirlər keçirilmişdir. Həmçinin Nizami Rayon İcra Hakimiyyəti ölkəmizin aparıcı kütləvi informasiya vasitələri ilə sıx əməkdaşlıq edir. Odur ki, 2012-2015-ci illərdə Nizami Rayon İcra Hakimiyyəti Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu ilə birgə "Nizami rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər" mövzusunda 3 müsabiqə keçirmişdir ki, bu da bizim mətbuatla sıx münasibətlərimizdən xəbər verir.

Sonra söz Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərliyə verildi. V.Səfərli Azərbaycan Milli Mətbuatının 140 illiyinin keçirilməsi ilə bağlı ölkə Prezidentinin sərəncamını yüksək qiymətləndirdi. Qeyd etdi ki, sərəncamla əlaqədar regionlarda müxtəlif tədbirlər keçirilmişdir.

Zərdabi yurdundan başlayan tədbir bu gün də davam edir. V.Səfərli Milli Mətbuatın 140 illiyi münasibətilə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müxtəlif mükafatların verilməsi ilə bağlı imzaladığı sərəncamı yüksək qiymətləndirdi və buna görə bütün KİV nümayəndələri adından minnətdarlığını bildirdi.

Tədbirin sonunda bir qrup KİV nümayəndələri mükafatlandırıldı.

**M.MİRZƏ,**
**"Respublika".**
**Foto S.MƏMMƏDİNDİR.**